AzərTürkBank

# Cari hesabinin açilmasi üçün tələb olunan sənədlər və məlumatlar

## (qeyri-rezident hüquqi şəxslərin filialları və nümayəndəlikləri)

SWIFT: AZRTAZ22
C. Məmmədquluzadə küç.85:
192/193
Bakı, AZ1078, Azərbaycan

945 | atb.az

Aşağıda qeyd olunan sənədlər tərifinizdən **əvvəlcədən** hazır edilərək Bankın internet səhifəsindən müraciət zamanı müvafiq pəncərə vasitəsilə təqdim edilməlidir:

| Nº | Sənədin adı | İzah |
|---|---|---|
| 1. | Rəhbər şəxsin (qanuni təmsilçinin) şəxsiyyəti təsdiq edən sənədinin surəti * | Bu sənədin hər iki üzü skanerdən keçirilir |
| 2. | Rəhbər şəxsin (qanuni təmsilçinin) səlahiyyətlərini təsdiq edən əmr | Bu sənədin surəti çıxarılaraq səlahiyyətli şəxs tərəfindən "əsli ilə düzdür" təsdiq edilərək skanerdən keçirilir |
| 3. | W-8BEN E / CRS Anketi məlumatları (hüquqi şəxsin müvəkkil şəxsi və ya təsisçisi ABŞ vətəndaşıdırsa əlavə olaraq W 9 Anketi məlumatları), PEP forması | Bu sənəd əvvəlcədən Bankın internet səhifəsində müvafiq pəncərədən yüklənir, tərəfinizdən tam doldurulur, ASAN imza ilə imzalanır |
| 4. | Əlavə eyniləşdirmə məlumatları ** | Bu sənəd əvvəlcədən Bankın internet səhifəsində müvafiq pəncərədən yüklənir, tərəfinizdən tam doldurulur, ASAN imza ilə imzalanır |
| 5. | Hüquqi şəxs olan qeyri-rezidentin təsis və qeydiyyat sənədlərinin və Azərbaycan dilinə tərcüməsi notariat qaydasında təsdiq edilmiş surətləri | Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə başqa hal nəzərdə tutulmadıqda təqdim edilir və qanunvericiliyə müvafiq qaydada leqallaşdırılır |
| 6. | Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə nəzərdə tutulduğu halda, hesabın açılması üçün xarici ölkənin müvafiq dövlət qurumlarının (maliyyə bazarlarına nəzarət orqanının və ya digər dövlət qurumunun) xüsusi icazəsi | Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə başqa hal nəzərdə tutulmadıqda, qanunvericiliyə müvafiq qaydada leqallaşdırılır və Azərbaycan dilinə tərcüməsi notariat qaydasında təsdiq edilir |

Aşağıda qeyd olunan sənədlər Bank tərifindən vergi orqanlarının müvafiq bazasından əldə olunduğundan **təqdim edilməyə bilər,** lakin prosesin tezləşdirilməsi və vergi orqanlarının bazasında çətinliklər yarandıqda prosesin ləngiməməsi məqsədilə **əvvəlcədən** hazır edilərək Bankın internet səhifəsindən müraciət zamanı müvafiq pəncərə vasitəsilə təqdim edə bilərsiniz:

| Nº | Sənədin adı | İzah |
|---|---|---|
| 1. | Xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq edilmiş Əsasnaməsinin surəti | Bank tərəfindən müvafiq qeydiyyat orqanlarının elektron informasiya sistemi vasitəsilə əldə etmək mümkün olmadıqda əlavə olaraq təqdim edilə bilər |
| 2. | Xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin Azərbaycan Respublikasında dövlət reyestrindən ən son dəyişiklikləri əks etdirilən çıxarışın surəti | Bank tərəfindən müvafiq qeydiyyat orqanlarının elektron informasiya sistemi vasitəsilə əldə etmək mümkün olmadıqda əlavə olaraq təqdim edilə bilər |
| 3. | Hüquqi şəxsin vergi uçotu haqqında Şəhadətnamə (VÖEN) | Bu sənədin hər iki üzü skanerdən keçirilir |

* Şəxsiyyəti təsdiq edən sənədlərə aşağıdakılar aiddir:
1) şəxsiyyət vəsiqəsi (Azərbaycan Respublikasının vətəndaşları üçün);
2) pasport, yaxud Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün verilən icazə vəsiqəsi (əcnəbilər üçün);
3) Azərbaycan Respublikasının ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə verilən şəxsiyyət vəsiqəsi, yaxud Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün vətəndaşlığı olmayan şəxslərə verilən icazə vəsiqəsi.

** Əlavə eyniləşdirmə məlumatları:
1) Əvvəlki ad(lar)ı, adların dəyişilmə tarixləri, əvvəlki idarəetmə orqan(lar)ının rəhbər(lər)inin, 10%-dən yuxarı həcmdə paya malik olan təsisçil(ər)in, səhmdar(lar)ın adları, soyadı, atasının adı, təvəllüdü, onların dəyişilmə tarixi barədə məlumat;
2) Üçüncü şəxs adından, üçüncü şəxs xeyrinə və ya üçüncü şəxsin vəsaitləri (əmlakı) ilə əməliyyatlar aparılacaqsa həmin şəxs(lər)in hüquqi şəxs olduqda adı, qeydiyyat ölkəsi, fiziki şəxs olduqda adı, soyadı, atasının adı, təvəllüdü, habelə həmin şəxslərə aid vəsaitlərin məbləği (manat ekvivalentində);
3) Hazırkı fəaliyyət sahələri;
4) Filial, şöbə və ya nümayəndəliklərinin sayı;
5) Əməkdaşlarının ümumi sayı;
6) Hesabları olan digər bankların(hesab açıldığı ölkənin adı qeyd olunmaqla) adları;
7) Hazırkı aktivlərin həcmi (manat ekvivalentində);
8) Son 12 aylıq dövrdə mənfəətinin orta aylıq həcmi (manat ekvivalentində);
9) Son 12 aylıq dövrdə orta aylıq dövriyyəsi (manat ekvivalentində);
10) Son 12 aylıq dövrdə xaricə edilən köçürmələrin orta aylıq məbləği (manat ekvivalentində);
11) Son 12 aylıq dövrdə xaricdən edilən köçürmələrin orta aylıq məbləği (manat ekvivalentində);
12) Rəhbərlərindən, kapitalında 10%-dən yuxarı həcmdə paya malik olan təsisçilərindən, səhmdarlarından, hesabına imza hüququna malik olan şəxslərdən və ya digər nümayəndələrindən birinin siyasi xadim olması;
13) şəxsin adı, soyadı, atasının adı, təvəllüdü, həmin vəzifənin, iş yerinin adı və vəzifənin tutması tarixləri;
14) şəxsin hazırda və ya əvvəllər belə vəzifələri tutan şəxslərin qohumu olduqda, həmin vəzifələri tutan şəxslərin adı, soyadı, atasının adı, təvəllüdü, iş yeri, vəzifəsi və qohumluq dərəcəsi (ər/arvad, ata/ana, oğlu/qızı, baba/nənə, nəvə, qardaş/bacı, övladlığa götürülən, övladlığa götürən);
15) 10%-dən yuxarı həcmdə paya malik olan hüquqi şəxs olan təsisçilərinin və səhmdarlarının rəhbərləri, təsisçiləri, səhmdarları barədə eyniləşdirmə məlumatları.

**DİQQƏT!!! Nəzərinizə çatdırırıq ki:**

a) İmza və möhür nümunələri vərəqəsi **məsafədən müraciət əsasında hesab açılarkən tələb edilmir;**
b) Banka yaxınlaşaraq məsafədən müraciət əsasında açılmış hesab üzrə əməliyyat həyata keçirildikdə, **imza və möhür nümunələri vərəqəsi təqdim edilməlidir:**
- notarial qaydada təsdiq edilərək təsdiq edilmiş əmrləri və şəxsiyyəti təsdiq edən sənədləri əlavə etməklə təqdim edilir;

*yaxud*

- imzaları təsdiq edilən şəxslərin iştirakı, təsdiq edilmiş əmrləri və şəxsiyyəti təsdiq edən sənədləri təqdim edilməklə bankda səlahiyyətli şəxs tərəfindən təsdiq edilir.